Building a better working world

Mart 2025-ci il

# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi




Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Rəqabət Məcəlləsi ilə əlaqədar bir sıra Qərarlar qəbul olunmuşdur.
- Yüklərin daşınması üçün nəzərdə tutulmuş elektrikli nəqliyyat vasitələrinin gömrük rüsumlarına dəyişikliklər
- Banklar və xarici bankların yerli filialları ilə bağlı yeni Qayda
- Azərbaycan Respublikasının Süni İntellekt Strategiyası təsdiq olunmuşdur.
- Mərkəzi Bank: Faiz dəhlizinin parametrləri

## Rəqabət Məcəlləsi ilə əlaqədar bir sıra Qərarlar qəbul olunmuşdur.

i. *10 mart 2025-ci il tarixində "Müvafiq bazarda bazar paylarının hesablanması, müvafiq bazarın məhsul və coğrafi sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Qərar ("Qayda") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.*

Qayda müvafiq bazarın məhsul sərhədlərini müəyyən etmək üçün aşağıdakı metodları və onların anlayışlarını müəyyənləşdirmişdir:

- Tələb əvəzediciliyi
- Təklif əvəzediciliyi

Bundan əlavə, Qayda Herfindal-Hirşman İndeksi vasitəsilə bazar təmərküzləşməsini qiymətləndirmək üçün meyarları aydınlaşdırmışdır.

Həmçinin, coğrafi sərhədlərin və bazar strukturunun müəyyən edilməsi üsulları Qaydada ətraflı şəkildə göstərilmişdir.

Qayda ədalətli rəqabət və effektiv bazar təhlilini təmin etməyi hədəfləyir.

Qayda 11 mart 2025-ci il tarixində qüvvəyə minmişdir.

ii. *10 mart 2025-ci il tarixində "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən hallar, fəaliyyət sahələri və məhsullar"ın təsdiq edilməsi haqqında Qərar ("Qərar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuşdur.*

Qərar hərbi və ya fövqəladə vəziyyətlərdə Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tətbiq edilmədiyi və ya məhdud şəkildə tətbiq edildiyi müəyyən hallar, fəaliyyətlər və məhsulları özündə əks etdirir.

Qərar 11 mart 2025-ci il tarixində qüvvəyə minmişdir.

iii. *10 mart 2025-ci il tarixində "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə uyğun olaraq maliyyə sanksiyalarının hesablanması və tətbiqi meyarları və Qaydaları"nın təsdiq edilməsi haqqında Qərar ("Qaydalar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.*

Qaydalar işin hallarından asılı olaraq Rəqabət Məcəlləsinin pozulması ilə bağlı maliyyə sanksiyalarının hesablanması qaydasını müəyyən edir.

Qaydalara əsasən, yüngülləşdirici amillər məcmu olaraq nəzərə alındıqda, pozuntular üçün sanksiya məbləği ümumilikdə 40% ilə 90% arasında azaldıla bilər. Bəzi hallarda isə əgər məcmu halında ağırlaşdırıcı amillər tətbiq olunursa, hər bir amil üzrə sanksiya məbləği 25% artırılır; lakin bu məbləğ həmin pozuntu üçün müəyyənləşdirilmiş sanksiyanın yuxarı həddini aşmamalıdır.

Qaydalar 11 mart 2025-ci il tarixində qüvvəyə minmişdir.

iv. *10 mart 2025-ci il tarixində "Sazişlərin Azərbaycan Respublikası Rəqabət Məcəlləsində qeyd olunan şərtlərə cavab verməsinə, həmçinin texnologiyanın transferti, bazarın tədqiqi və inkişafı ilə əlaqəli sazişlərin istisna edilməsinə dair meyarlar"ın təsdiq edilməsi haqqında Qərar ("Qərar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.*

Qərar öz təbiətinə görə qadağan edilməyən xüsusi növ sazişlərə dair meyarları müəyyənləşdirir. Belə sazişlər rəqabət qanunvericiliyində "istisna edilmiş sazişlər" adlanır.

Əgər sazişlər istehlakçılara fayda verir və müəyyən şərtlərə cavab verirsə (məsələn, istehsalı artırır və ya xərcləri azaldırsa), həmin şərtlər mövcud olduğu müddətdə qadağadan azad edilir.

Bundan əlavə, texnologiya transferti ilə bağlı sazişlər də Qərarda müəyyən edilmiş bütün spesifik tələblərə cavab verdiyi halda istisna edilə bilər. Bu tələblərə tərəflərin bazar payı və transfert olunan texnologiyanın innovativ xarakteri daxildir, lakin bunlarla məhdudlaşmır.

Qərar istisnaların tətbiq edilmədiyi bəzi halları da müəyyən etmişdir.

Qərar 11 mart 2025-ci il tarixində qüvvəyə minmişdir.

v. *10 mart 2025-ci il tarixində "Sazişlərin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olması və ya ola bilməsinə dair meyarlar"ın təsdiq edilməsi haqqında Qərar ("Qərar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuşdur.*

Qərar, Rəqabət Məcəlləsində üfüqi və şaquli sazişlərə dair nəzərdə tutulmuş şərtləri özündə əks etdirmədikdə, bu cür sazişlərin rəqabəti məhdudlaşdırıb-məhdudlaşdırmadığını qiymətləndirmək üçün müvafiq meyarları müəyyən edir.

Qərara əsasən, əgər üfüqi sazişlər bazar payının əhəmiyyətli dərəcədə azalmasına, qiymət artımına, məhsul çeşidinin və ya innovasiyanın azalmasına səbəb olarsa, bu zaman rəqabəti məhdudlaşdıran sazişlər hesab edilir.

Eyni zamanda, əgər şaquli sazişlər təkrar satış qiymətlərini məhdudlaşdırır, müəyyən müştərilərə satışları azaldır və ya bazara giriş üçün maneələr yaradırsa, bu zaman rəqabəti məhdudlaşdıran sazişlər hesab olunur.

Qərar 11 mart 2025-ci il tarixində qüvvəyə minmişdir.

## Yüklərin daşınması üçün nəzərdə tutulmuş elektrikli nəqliyyat vasitələrinin gömrük rüsumlarına dəyişikliklər

*4 mart 2025-ci il tarixində "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında Qərar ("**Dəyişikliklər**") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.*

Dəyişikliklərə əsasən, zavod buraxılış tarixi 3 ildən çox olmayan yük daşınması üçün nəzərdə tutulmuş elektrikli nəqliyyat vasitələri gömrük rüsumlarından azad ediləcəkdir (adi halda bu növ elektrikli nəqliyyat vasitələri üçün gömrük rüsumu 5% təşkil edir). Bu azadolma 1 yanvar 2028-ci il tarixinədək qüvvədə olacaqdır.

Dəyişikliklər 4 aprel 2025-ci il tarixində qüvvəyə minmişdir.

## Banklar və xarici bankların yerli filialları ilə bağlı yeni Qayda

*25 fevral 2025-ci il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti tərəfindən "Banklar və xarici bankların yerli filialları tərəfindən tərtib edilən prudensial hesabatların forması, məzmunu və təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi barədə Qərar ("Qayda") qəbul edilmişdir.*

Qayda banklar və xarici bankların Azərbaycandakı yerli filialları tərəfindən hazırlanan prudensial hesabatların forması, məzmunu və təqdim edilməsi qaydalarını müəyyən edir.

Qaydaya əsasən, hesabatlar aylıq təqdim edilməli, hər ayın son iş gününə qədər olan əməliyyatları əhatə etməli, xüsusi forma və yuvarlaqlaşdırma tələblərinə uyğun olmalıdır. Hesabatların məzmunu və forması bu Qaydanın 1 nömrəli Əlavəsində göstərilmişdir.

Bu hesabatlar elektron qaydada imzalanaraq növbəti ayın 5-ci iş gününün sonunadək Mərkəzi Banka təqdim olunur.

Qayda 11 aprel 2025-ci il tarixindən qüvvəyə minəcək.

## Azərbaycan Respublikasının Süni İntellekt Strategiyası təsdiq olunmuşdur.

*19 mart 2025-ci il tarixində "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ("Strategiya") qəbul edilmişdir.*

Strategiya süni intellekt ("Sİ") tədqiqatlarının təşviqinə və Sİ barəsində ictimai savadlılığın artırılmasına yönəlib. Sənaye və dövlət arasında əməkdaşlığın təşviqi, həmçinin Sİ inkişafına dəstək üçün texnoloji infrastrukturun təkmilləşdirilməsi kimi tədbirlər buraya daxildir.

Bundan başqa, Strategiyada Sİ sahəsində fəaliyyət göstərən subyektlərə vergi güzəştlərinin tətbiq edilməsi və maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulmuşdur.

Strategiya 19 mart 2025-ci il tarixində qüvvəyə minmişdir.

## Mərkəzi Bank: Faiz dəhlizinin parametrləri

*12 mart 2025-ci il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin "Faiz dəhlizinin parametrləri haqqında" Qərarı ("Qərar") qəbul edilmişdir.*

Qərara əsasən, uçot dərəcəsi 7.25% səviyyəsində dəyişilməz olaraq saxlanılmışdır. Əlavə olaraq, faiz dəhlizinin aşağı limiti 6.25% və yuxarı limiti isə 8.25% səviyyəsində dəyişilməz olaraq qalmışdır.

Uçot dərəcəsinin dəyişməz saxlanılması ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf daxilində (4±2%) olması və makroiqtisadi meyillərin təhlili nəzərə alınmaqla qəbul olunmuşdur.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



Məmməd Balacanov
Baş Menecer, Hüquq xidmətinin rəhbəri, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilərə, əməkdaşlara, cəmiyyətə və planetimizə yeni faydalar təqdim etməklə və kapital bazarlarına inamı artırmaqla daha yaxşı iş dünyasını qurmağa çalışır.

Geniş məlumat bazası, süni intellekt və qabaqcıl texnologiyaların dəstəyi ilə əməkdaşlarımız müştərilərə gələcəyə inamla addımlamağa, bu günün və sabahın ən mühüm məsələlərinin həll yollarını tapmağa kömək edir.

EY şirkətinin mütəxəssisləri audit, konsaltinq, vergi, strategiya və əməliyyatlar daxil olmaqla fərqli sahələrdə çeşidli xidmətlər göstərirlər. Sənaye təcrübəsindən, qlobal miqyasda inteqrasiya olunmuş, multidissiplinar şəbəkədən və vahid ekosistemdə çalışan fərqli tərəfdaşlarımızın köməyindən faydalanaraq biz 150-dən çox ölkə və ərazilərdə xidmətlər təklif edirik.

Biz birlikdə gələcəyi formalaşdırmaq missiyamızı inamla yerinə yetiririk.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. EY firmaları yerli qanunlarla qadağan olunduğu ərazilərdə hüquq xidmətləri göstərmir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

© 2025-ci il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr yalnız məlumat məqsədilə hazırlanıb və uçot, vergi, hüquqi və ya digər peşəkar məsləhətin əvəzi kimi nəzərdə tutulmur. Konkret məsləhətlər almaq üçün məsləhətçilərə müraciət edin.

ey.com/az